Qəlblərdə daim yaşayacaq insan

(Əvvəli 2-ci səhifədə).

O dövrdə respublikada müəyyən bir iqtisadi geriləmə, ictimati-siyasi durğunluq müşahidə olunurdu. Əhalinin yaşayış səviyyəsi digər respublika xalqlarının yaşayış səviyyəsindən hiss olunacaq dərəcədə aşağı idi. Kreml 1969-cu ildə Azərbaycana Heydər Əliyevi rəhbər təyin etməklə xalqımız üçün ən doğru, ən düzgün mütləq olan bir seçim etmişdi.

O uzaq 1969-cu ildən başlayaraq Azərbaycanın yeni bir dövrü--iqtisadiyyatın, elmin və mədəniyyətin, incəsənətin, təhsilin, səhiyyənin bütün sahələrində əsl intibah dövrü başlandı. Heydər Əliyev respublikanın hərtərəfli tərəqqisi üçün yorulmaq bilmədən çalışırdı. Azərbaycan rəhbərinin apardığı genişmiqyaslı işlər, onun fəaliyyətinin dinamikliyi ittifaq üzrə çoxlarında həsəd doğururdu. Heydər Əliyev Azərbaycanı dünyanın ən qabaqcıl ölkəsi, xalqımızı isə ən xoşbəxt bir xalq kimi görmək istəyi ilə yaşayırdı.

Ulu öndərimizin təşəbbüsü və təklifi, qətiyyəti, inadı sayəsində Bakıda dərin özüllü qurğular, kondisionerlər, Gəncədə avtomobil zavodları, Naxçıvanda iri trikotaj fabriki, Mingəçevirdə yeni DRES, Sumqayıtda kompressorlar zavodu, Qəbələdə (keçmiş Qutqaşında) tütün fermentləmə zavodu tikilib istifadəyə verildi ki, həmin müəssisələrdə on minlərlə adam yeni iş yerləri ilə təmin olunurdu.

Minlərlə azərbaycanlı gənc məhz respublikanın uzaqgörən dahi rəhbərinin təşəbbüsü sayəsində SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil alaraq ixtisaslara yiyələndilər.

Xalqımızın tarixi-mədəni, əbədi irsini yüksək dəyərləndirən, onun qorunub-saxlanılmasını gələcək nəsillər üçün, mənəvi yaddaşımız üçün xüsusilə vacib sayan Heydər Əliyev xalqını ürəkdən sevən bir rəhbər kimi, vətən övladı kimi Azərbaycanın görkəmli ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin adlarının əbədiləşdirilməsi, heykəllərinin qoyulması, ev muzeylərinin açılması üçün də xeyli iş görmüşdür.

Heydər Əliyev dühası o qədər zəngin, geniş və əhatəli idi ki, o, hər yerdə və istənilən zaman insan həyatının və fəaliyyətinin bütün sahələri üzrə ali mütəxəssis kimi çıxış edə bilirdi. O, siyasət sahəsində olduğu kimi, sənaye elm və mədəniyyət, hərbi, təhsil və səhiyyə sahəsində də ensiklopedik biliyə malik bir insan tək nüfuzlu və böyük sərişteli mütəxəssis təsiri bağışlayırdı.

Ulu öndərimiz 15 iyun 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra ölkəmizin sürətli və hərtərəfli inkişafı üçün daha böyük qüvvə ilə yorulmaq bilmədən əsl fədakarlıqla çalışmışdır. Bu gün Azərbaycanın Qafqaz regionunda lider dövlətə çevrilməsi, bütün dünyada tanınması, siyasi nüfuzunun xeyli artması Heydər Əliyevin böyük uzaqgörənliklə və özünəməxsus qətiyyət və iradə ilə neft strategiyasını həyata keçirə bilməsinin, beynəlxalq neft kontraktlarının bağlanmasına nail olmasının nəticəsidir.

Ulu öndərimizin layiqli davamçısı cənab Prezident İlham Əliyev bu gün Azərbaycanı inamla irəli apararaq bütün regionun lider dövlətinə çevirmişdir.

Oqtay MƏMMƏDOV.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qəbələ şəhərində vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, onların müxtəlif məsələlərlə bağlı müraciət, ərizə və şikayətlərinin müsbət həll edilməsi üçün müvafiq tədbirlər görürlər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2014-cü ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (DTXK) sədri Qərib Məmmədov iyulun 4-də Qəbələ şəhərində vətəndaşları qəbul etmişdir.

Qəbələ Şəhər Mədəniyyət Mərkəzində keçirilən qəbulda İsmayıllı, Şamaxı, Qəbələ və Ağsu rayonlarından olan 40-dan çox vətəndaşın müraciəti dinlənilmişdir.

Vətəndaşların bəziləri Rusiya və digər xarici ölkələrin ərazisində müvəqqəti yaşamaları ilə bağlı onların adlarının yerli aqrar islahat komissiyasının səhvi ucbatından siyahıya salınmaması, mülkiyyətçilər arasında torpaq-sərhəd mübahisəsi məsələlərini qaldırmışlar. Qəbula gələnlərin bir qismi isə torpaq islahatı ilə bağlı müvafiq sənədlər işlənib tərtib edilərkən adlarında, soyadlarında və s. müəyyən texniki qüsurlara yol verildiyi, yerli aqrar islahat komissiyasının qərarı ilə paylarına daxil edilmiş və bağ kimi istifadə etdikləri, lakin dövlət meşə fonduna aid torpaq sahələrinin özəlləşdirilməsi barədə müraciət etmişlər.

Müraciətlərdə qaldırılan məsələlər həlli bilavasitə DTXK-ya aid olduğu hallarda, qəbulun keçirildiyi gün ərzində mütəxəssislər vasitəsilə yerlərdə yer quruluşu ölçmə işləri aparılaraq torpaq sahələri həmin vətəndaşlara təkrarən tanıdılmışdır. Qaldırılan məsələlər müvafiq orqanların iştirakı ilə zəruri araşdırma tələb etdiyi hallarla bağlı vətəndaşların müraciətləri DTXK-nın kargüzarlığında nəzarətə götürülərək qeydiyyata alınmış və komitənin müvafiq məktubları ilə aidiyyəti qurumlara ünvanlanmışdır.

Vətəndaşların müraciətlərində öz səlahiyyətlərinə aid işlərin qısa müddətdə icrası məqsədilə DTXK-nın aidiyyəti rayon və şəhər şöbələrinə də rəsmi qaydada tapşırıqlar verilmişdir.

45 il öncə başlanan inkişaf yolu

1969-cu ilin iyul ayının 14-də Azərbaycan tarixində mühüm hadisə baş verdi. Sonralar Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətə görə ümummilli lider adını qazanan Heydər Əlirza oğlu Əliyev Azərbaycanda ən yüksək siyasi vəzifəyə--Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KR MK) birinci katibi vəzifəsinə seçildi. O vaxta qədər hərtərəfli yüksək fitri istedada, siyasi məharətə və yorulmaz fəallığa malik olan Heydər Əliyevi Azərbaycan xalqının müəyyən qismi tanımırdı. Bu ondan irəli gəlirdi ki, 1969-cu ilə qədər Heydər Əliyev nəinki SSR-də, həm də bütün dünyada qüdrətli məxfi hərbi-siyasi təşkilat olan SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin tabeliyində Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi orqanlarında çalışmış, siravi əməliyyat işçisindən bu təşkilatın sədrliyinə qədər yüksəlmişdi. Heydər Əliyev Azərbaycan DTK-nın ilk azərbaycanlı rəhbəri idi.

Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi Azərbaycanda bütün sahələrdə yüksək inkişafın başlanğıcı oldu. Həmin il avqust ayının 5-də Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan KR MK-nın növbəti plenumu keçirildi. Heydər Əliyev bu plenumda çıxış edərək respublikanın siyasi, sosial-iqtisadi və mədəni həyatını dərindən təhlil etdi. Bu sahələrdə ciddi nöqsanların olduğunu göstərməklə bərabər onların aradan qaldırılması yollarını da müəyyən etdi. Heydər Əliyevin 1969-cu il avqust plenumundakı məruzəsi bütün SSRİ-də dərin rezonans doğurdu. SSRİ tarixində birinci dəfə Heydər Əliyevin məruzəsində etiraf olunurdu ki, SSRİ-də, o cümlədən Azərbaycanda rüşvətxorluq və korrupsiya hallarına yol verilir. Bu vaxta qədər heç bir rəhbər işçi bu həqiqəti etiraf edə bilməmişdi.

Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə Azərbaycanda sağlam mənəvi-psixoloji iqlim yarandı, əmək intizamı, idarəçilik sistemi möhkəmləndi, kadrlara qarşı tələbkarlıq artdı. Heydər Əliyev kadrların düzgün seçilib yerləşdirilməsini müvəffəqiyyətin əsas amili sayır və bu sahəyə xüsusi diqqət yetirirdi.

1969-cu il 14 iyul plenumundan sonra dahi azərbaycan oğlunun rəhbərliyi sayəsində respublikada həyatın bütün sahələrində qısa müddətdə irəliləyiş baş verdi. Respublikamızın və onun rəhbərinin SSRİ səviyyəsində nüfuzu yüksəldi. 1976-cı ildə Heydər Əliyev SSRİ-ni idarə edən dünyada ən mötəbər təşkilat sayılan Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi. Ümumilikdə ötən əsrin 70-80-ci illərini Azərbaycanda sosial-iqtisadi və mədəni inkişafın ən sürətli illəri kimi səciyyələndirmək olar. Bu müddət ərzində respublikamızda 250-də çox fabrik və zavod istifadəyə verildi, 630 min yeni iş yeri açıldı. 1971-1985-ci illərdə Azərbaycana 32 milyard rubl (təqribən 40 milyard dollar) sərmayə qoyuldu ki, bu əvvəliki 50 ildəkindən 2,1 dəfə çox idi.

(Ardı 4-cü səhifədə).